# Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış ~~dövlət agentliyi və~~ dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və onun yanında yaradılmış ~~dövlət agentliyinin və~~ dövlət xidmətlərinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**[2]

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 1).

2. ~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 2).~~[3]

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Dövlət Baytarlıq Nəzarəti Xidməti* haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 3).[4]

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 4).

5. ~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur - əlavə 5).~~[5]

6. "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 9, maddə 555) ilə təsdiq edilmiş əlavə № 2 - "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı"nın 10-cu və 11-ci bəndlərində "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin aşağıda göstərilən Fərmanları qüvvədən düşmüş hesab edilsin:

7.1. "Dövlət Aqrar İslahatı Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 2 mart tarixli 290 nömrəli Fərmanı;

7.2. "Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 14 aprel tarixli 313 nömrəli Fərmanı;

7.3. "Kənd təsərrüfatında nümunəvi özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 19 sentyabr tarixli 495 nömrəli Fərmanı;

7.4. "Kənd təsərrüfatında özəl təsərrüfatların formalaşmasına yardım üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 7 fevral tarixli 275 nömrəli Fərmanı.

8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

8.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və onun yanında yaradılmış dövlət agentliyinin və dövlət xidmətlərinin işçilərinin say həddini bir ay müddətində müəyyən etsin;[6]

8.2. normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.3. bu Fərmanla ləğv edilən Azərbaycan Respublikası Dövlət Aqrar İslahatı Komissiyasının müvafiq sənədlərinin, Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyinin sənədlərinin və əmlakının Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təhvil verilməsini təmin etsin;

8.4. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

10. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı səhəri, 20 aprel 2005-ci il
№ 226

ƏLAVƏ 1

Azərbaycan Respublikası Prezidentinin
2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında

## Ə S A S N A M Ə

### I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (bundan sonra - Nazirlik) Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2004-cü il 23 oktyabr tarixli 467 nömrəli Sərəncamına əsasən yenidən təşkil edilmişdir.

2. Nazirlik Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı,~~ baytarlıq, bitki mühafizəsi və karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlət siyasətini işləyib hazırlayan və onu gerçəkləşdirən, normativ hüquqi və iqtisadi tənzimlənməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. [7]

~~3. Nazirliyin yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Dövlət Baytarlıq Xidməti, Dövlət Fitosanitar Nəzarəti Xidməti və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi fəaliyyət göstərir. Nazirlik həmin agentliyin və xidmətlərin fəaliyyətini əlaqələndirir və onlara nəzarəti həyata keçirir.~~[8]

4. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

5. ~~Nazirlik öz fəaliyyətini bilavasitə və onun yanında yaradılan Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Dövlət Baytarlıq Xidməti, Dövlət Fitosanitar Nəzarəti Xidməti və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, habelə onun tabeliyində olan digər qurumlar vasitəsilə həyata keçirir.~~[9]

6. Nazirlik bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyaları Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə ictimai təşkilatlarla və digər hüquqi şəxslərlə qarşılıqlı əlaqəli şəkildə həyata keçirir.

7. Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

8. Nazirliyin saxlanılması xərcləri Azərbaycan Respublikasının Dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

9. Nazirlik Bakı şəhərində yerləşir.

## II. NAZİRLİYİN ƏSAS VƏZİFƏLƏRİ

10. Nazirliyin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

10.1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı,~~ baytarlıq, bitki mühafizəsi və karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlətin siyasətini işləyib hazırlamaq və həyata keçirmək; [10]

10.2. aqrar bölmədə islahatların aparılmasını təmin etmək, özəl bölmənin inkişafını sürətləndirmək üçün tədbirlər görmək;

10.3. aqrar bölməyə daxil olan sahələrin inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək və onların həyata keçirilməsi üçün tədbirlər görmək;

10.4. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı,~~ baytarlıq, bitki mühafizəsi və karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə normativ hüquqi tənzimləməni, o cümlədən iqtisadi münasibətlərin tənzimlənməsini həyata keçirmək;[11]

10.5. aqrar bölmənin inkişafına yönəldilmiş proqramlar hazırlamaq və onların həyata keçirilməsini təmin etmək, aqrar bölmənin sosial-iqtisadi inkişaf konsepsiyasını hazırlamaq;

10.6. aqrar bölmədə dövlət əmlakının səmərəli istifadə edilməsinə nəzarət etmək və bu sahədə dövlət maraqlarının qorunmasını təmin etmək;

10.7. aqrar bölmədə beynəlxalq əməkdaşlığı həyata keçirmək;

10.8. aqrar bölməyə sərmayələrin cəlb edilməsini təmin edən tədbirlər görmək, o cümlədən aidiyyəti dövlət orqanları ilə birlikdə investisiya layihələrinin həyata keçirilməsi üçün tədbirlər görmək;

10.9. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər hazırlamaq və onların həyata keçirilməsində iştirak etmək;

10.10.aqrar bölmədə yerli istehsalçıların dəstəklənməsi üçün tədbirlər görmək, kənd təsərrüfatı məhsullarının istehsalçıları və emalçıları üçün aqroservis, aqrokimyəvi, məsləhət və digər xidmətlərin göstərilməsinə kömək etmək;

10.11.kənd təsərrüfatı üçün yararlı torpaq sahələrindən səmərəli istifadə edilməsinə və onların keyfiyyətinin yaxşılaşdırılmasına nəzarət etmək;

10.12.kənd yerlərində infrastrukturun inkişafı və sosial problemlərlə bağlı məsələlərin həllində, o cümlədən müvafiq dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

10.13.Nazirliyin *sisteminə daxil olan qurumların* işini əlaqələndirmək;[12]

10.13-1. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;[13]

10.14.Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər Vəzifələri yerinə yetirmək.

## III. NAZİRLİYİN ƏSAS FUNKSİYALARI

11. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

11.1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, ~~meliorasiya və su təsərrüfatı,~~ baytarlıq, bitki mühafizəsi və karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmənin inkişafı ilə əlaqədar, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına və emal sahələrinin inkişafına, kənd təsərrüfatı texnikasının və onların ehtiyat hissələrinin istehsalına həsr olunmuş proqramlar hazırlayır və onların icrasını təmin edir; [14]

11.2. aqrar bölmənin inkişafını təmin edən normativ hüquqi bazanın yaradılmasında iştirak edir;

11.3. aqrar bölmədə xidmət mərkəzlərinin təşkili və sahənin maddi-texniki vasitələrlə təmin olunmasına köməklik göstərir;

11.4. kənd təsərrüfatı məhsulları istehsalçılarının mənafeyinin qorunması ilə bağlı təkliflər hazırlayır, aidiyyəti dövlət orqanlarına təqdim edir və səlahiyyətləri daxilində tədbirlər görür;

11.5. nazirlik sisteminə daxil olan qurumlar tərəfindən qanunvericiliyə uyğun olaraq göstərilən pullu xidmətlərin tarifləri barədə təklif hazırlayır və aidiyyəti üzrə təqdim edir;

11.6. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün *Nazirliyin sisteminə daxil olan qurumlar* tərəfindən istifadə edilən məqsədli büdcə vəsaitinin təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq edir;[15]

11.7. səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün *Nazirliyin sisteminə daxil olan qurumlar* tərəfindən məqsədli büdcə vəsaitinin təyinatı üzrə istifadəsi üzərində qanunvericiliyə müvafiq olaraq nəzarəti həyata keçirir;[16]

11.8. kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, onların emalının genişləndirilməsi, itkilərin qarşısının alınması və məhsulun keyfiyyətinin yüksəldilməsi üzrə texniki, texnoloji, təşkilati və iqtisadi tədbirlərin həyata keçirilməsində iştirak edir;

11.9. kənd təsərrüfatı sahəsində elmi-tədqiqat işlərinin aparılmasını, səmərəli ixtira və kəşflərin tətbiqini təşkil edir;

11.10.kənd təsərrüfatı sahələrinin elektrikləşdirilməsi və avtomatlaşdırılması istiqamətlərini müəyyən edir və aidiyyəti orqanlarla birlikdə onların həyata keçirilməsini təşkil edir;

11.11.əkinə yararlı torpaqların aqrokimyəvi tədqiqatlarını aparır, su təchizatının yaxşılaşdırılmasına dair tədbirlər həyata keçirir, torpaqların meliorativ cəhətdən yaxşılaşdırılmasında iştirak edir. [17]

11.12. tabeliyində olan müvafiq qurumlar vasitəsilə ölkədə dövlət baytarlıq xidmətinin həyata keçirilməsini təmin edir, baytarlıq baxımından təhlükəsiz və keyfiyyətli məhsulun və xammalın istehsalı üçün zəruri tədbir görür, baytarlıq elminin inkişafı və nailiyyətlərinin tətbiqi, baytarlıq mütəxəssislərinin hazırlanması və əlavə təhsili üçün tədbirlər görür; [18]

11.13. baytarlıq preparatlarının, vitaminlərin, yem əlavələrinin, habelə mal-qaranın boy artımını sürətləndirən və məhsuldarlığını yüksəldən bioloji stimulyatorların və hormonların istehsalına, saxlanılmasına, heyvandarlıqda və baytarlıqda tətbiqinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarəti həyata keçirir;

11.14. müvafiq qurumları vasitəsilə damazlıq işi sahəsində yüksək məhsuldarlığa, sabit irsi əlamətlərə malik cins heyvanların yetişdirilməsini, onların sınağını, geniş təkrar istehsalını təşkil edir, heyvan cinslərinin genofondunun uçotunu aparır;

11.15. tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq, cins heyvanları və damazlıq məhsulları olan hüquqi şəxslər, eləcə də fiziki şəxslər tərəfindən damazlıq heyvandarlığın norma və qaydalarına əməl edilməsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət edir, damazlıq heyvanların hər bir növü və cinsi üzrə dövlət reyestrini və dövlət damazlıq kitablarını tərtib edir, təsərrüfatların uçotunu, habelə damazlıq ehtiyatlarının sınağını və ekspertizasını aparır;[19]

11.16. müvafiq qurumları vasitəsilə yem ehtiyatlarından səmərəli istifadə olunması üzrə tədbirlər həyata keçirir, tövsiyələr verir, yeni yem növlərinin və yem əlavələrinin sınaqdan keçirilməsini təşkil edir;

11.17. müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilən yay və qış otlaqlarının təyinatı üzrə istifadəsi barədə təkliflər verir;

11.18. yay və qış otlaqlarından istifadənin səmərəliliyini artırmaq, ot örtüyünün botaniki tərkibini yaxşılaşdırmaq və heyvandarlığın yem bazasını möhkəmləndirmək üçün müvafiq tədbirlərin həyata keçirilməsində iştirak edir;

11.19. tabeliyində olan müvafiq dövlət qurumları vasitəsilə ölkədə fitosanitar xidmətinin həyata keçirilməsini təmin edir, bitki mühafizəsi və bitki karantini sahəsində müvafiq tədbirlərin həyata keçirilməsini təşkil edir;

11.20. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin sınağını və qeydiyyatını təşkil edir;

11.21. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yanında fəaliyyət göstərən qurumlar vasitəsilə ölkəyə gətirilən və ölkədən çıxarılan heyvandarlıq və bitkiçilik məhsullarına baytarlıq şəhadətnaməsinin, fitosanitar sertifikatın və digər sənədlərin verilməsini təşkil edir;

11.22. kənd təsərrüfatı texnikasının və onların ehtiyat hissələrinin istehsalı üçün proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak edir, ölkədə istehsal olunan kənd təsərrüfatı texnikasının, maşın və avadanlığın sınağının keçirilməsini təşkil edir;

11.23. kənd təsərrüfatında lizinqin tətbiqi sahəsində müvafiq orqanlarla birlikdə layihələr hazırlayıb həyata keçirir, bu məqsədlə ayrılmış vəsaitin səmərəli istifadəsi barədə təkliflər verir;

11.24. tabeliyində olan müvafiq dövlət qurumları vasitəsilə aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin dəstəklənməsi məqsədilə kreditlərin cəlb edilməsini və təyinatı üzrə istifadəsini, habelə beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən layihələrin icrasının təmin edilməsini təşkil edir;

11.25.kənd təsərrüfatında islahatların dərinləşdirilməsi və özəl bölmənin inkişafını sürətləndirmək üçün beynəlxalq maliyyə təşkilatlan ilə birlikdə müvafiq layihələr çərçivəsində işlərin təşkil edilməsini təmin edir;

11.26.beynəlxalq təşkilatlar və maliyyə qurumları tərəfindən həyata keçirilən layihələr çərçivəsində alman vəsaitin aqrar bölmədə məqsədyönlü istifadəsinə nəzarət edir;

(Çıxarılıb) [20]

11.27. müvafiq qurumlar vasitəsilə torpaqların münbitliyinin bərpası və mühafizəsi sahəsində, səmərəli aqrotexniki, ~~meliorativ,~~ fitosanitar və eroziyaya qarşı mübarizə tədbirlərini öz səlahiyyəti daxilində həyata keçirir; [21]

11.28. kənd təsərrüfatına yararlı torpaqlardan yüksək məhsul əldə olunması və həmin torpaqların mühafizəsinin təmin edilməsi məqsədilə mütərəqqi torpaqbecərmə işlərinin aparılması, texnika və texnologiyaların tətbiqi ilə bağlı tədbirlərdə iştirak edir;

11.29. müvafiq qurumlan vasitəsilə kənd təsərrüfatı məhsulları istehsal edən qurumlarda torpağın münbitliyinin bərpa edilməsini, gübrə və digər kimyəvi preparatlardan düzgün və səmərəli istifadə edilməsini, habelə aqro-kimyəvi xidmət işini təşkil edir, öz səlahiyyətləri daxilində təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin edir;

11.30. qanunvericiliklə müəyyən edilmiş qaydada kənd təsərrüfatı bitkilərinin toxumçuluğunu təşkil edir, sort alınma, dövlət sınağı, rayonlaşdırma işlərinə dövlət nəzarətini həyata keçirir;

11.31. ərzaq təhlükəsizliyi sahəsində aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq iş aparır, səlahiyyətləri daxilində kənd təsərrüfatı və emalı məhsullarının keyfiyyətinə nəzarət edir, dequstasiya (titesteriya) komissiyalarının yaradılması, sərgi, auksion və yarmarkaların təşkili yolu ilə istehsalçılarla istehlakçılar arasında əlaqələrin yaradılmasına kömək edir;

11.32. tabeliyində olan müvafiq qurumlar vasitəsilə Azərbaycan Respublikasının ərazisində heyvanların və quşların müxtəlif xəstəliklərdən qorunmasını və onların müalicəsini, heyvan mənşəli məhsulların və xammalın zəruri baytarlıq-sanitariya keyfiyyətinə nəzarəti təşkil edir;

11.33. kənd təsərrüfatı məhsullarının istehsalının və idxalının tənzimlənməsində, ərzaq məhsulları ehtiyatlarının yaradılmasında və daxili bazarın qorunmasında səlahiyyətləri daxilində iştirak edir;

11.34. müvafiq standartların tələblərinə, sanitariya normalarına və qaydalarına riayət etməklə məhsul istehsalı üçün texnoloji təlimatlar hazırlayıb aidiyyəti üzrə təqdim edir;

11.35. istehsal mənşəyinə görə emal sənayesi məhsullarına kənd təsərrüfatı bitki sortlarının yetişdirildiyi və emal edildiyi inzibati ərazi vahidlərinin adlarına və yerli şəraitə uyğun adların verilməsində iştirak edir;

11.36. ərzaq məhsullarının və xammalın keyfiyyət göstəricilərini tədqiq etmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada laboratoriyalar yaradır;

11.37.istifadəyə yararsız yeyinti məhsullarının dövriyyədən çıxarılmasında, zərərsizləşdirilməsində və ya məhv edilməsində aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə iştirak edir;

11.38.kənd təsərrüfatı məhsullarının emalı üzrə müəssisələrin yaradılması və yenidən qurulması barədə təkliflər verir;

11.39.kənd təsərrüfatı bitkilərinin əkin materiallarının sortluq və əkin keyfiyyətini təsdiq edən şəhadətnamə verir;

11.40.Nazirliyin tabeliyində olan idarə, müəssisə və təşkilatlarda əməyin mühafizəsinə dair qayda və normaların yerinə yetirilməsinə nəzarət edir.

11.41.kənd təsərrüfatı sahəsində kreditlərin verilməsi barədə təkliflər verir;

11.42.qanunvericiliyə uyğun olaraq aqrar bölmədə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növü ilə məşğul olmaq üçün fiziki və hüquqi şəxslərə lisenziya verir;

11.43.qanunvericilikdə müəyyən edilmiş qaydada malların alınması, xidmətlərin göstərilməsi, işlərin görülməsi üçün dövlət satınalmalarının təşkilini həyata keçirir;

11.44.Nazirlik sisteminə daxil olan elmi təşkilatların fəaliyyətini əlaqələndirir, aqrar elminin inkişafına və onun nəticələrinin tətbiqinə dair müvafiq tədbirlər görür;

11.45.müəyyən edilmiş qaydada kənd təsərrüfatı sahəsində beynəlxalq elmi-texniki və iqtisadi əlaqələrin genişlənməsini təmin edir;

11.46.səlahiyyətləri daxilində beynəlxalq kənd təsərrüfatı təşkilatları ilə əməkdaşlıq edir, onların tədbirlərində iştirak edir;

11.47.kənd təsərrüfatında çalışan hüquqi və fiziki şəxslərə informasiya-məsləhət xidmətinin *göstərilməsini təşkil edir;*[22]

11.48.dövlət və sığorta toxum fondları barədə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada müvafiq tədbirlər görür;

11.49.səlahiyyətləri daxilində pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, saxlanılması və tətbiqi üzərində, habelə kənd təsərrüfatı məhsullarında, yemlərdə, ərzaq məhsullarında, torpaqda pestisidlərin, nitratların, insan və heyvanların həyatı üçün təhlükəli olan digər zərərli maddələrin və birləşmələrin qalıq miqdarına qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət edir və bununla bağlı zəruri tədbirlər görür;

11.50.aqrar bölməyə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi üçün məqsədyönlü iş aparır;

11.51.tabeliyində olan təşkilatların büdcə vəsaitinə tələbatına dair təkliflər hazırlayır və aidiyyəti üzrə təqdim edir;

11.52.Nazirlik sistemində statistik və mühasibat uçotu və hesabatı işinin qüvvədə olan qaydalara uyğun təşkilini təmin edir;

11.53.dövlət əmlakından səmərəli istifadəyə fəaliyyət dairəsində nəzarəti həyata keçirir;

11.54. vətəndaşların qəbulunu təşkil edir, onların ərizə, şikayət və təkliflərinə mövcud qanunvericiliyə uyğun baxılmasını təmin edir;

11.55. qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

## IV. NAZİRLİYİN HÜQUQLARI

12. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək və funksiyaları həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

12.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada aqrar bölmənin inkişafı ilə bağlı zəruri məlumatlar və arayışlar almaq;

12.2. səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən olunmuş qaydada aqrar bölmənin bütün sahələri üzrə normativ hüquqi aktlar qəbul etmək, sahə standartları təsdiq etmək;

12.3. tabeliyində olan dövlət qurumları tərəfindən onların fəaliyyəti üzrə ayrılmış məqsədli büdcə vəsaitinin istifadəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət etmək;

12.4. qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbuat orqanı təsis etmək, bülletenlər və digər nəşrlər buraxmaq;

12.5. aqrar sahənin mütəxəssislərə olan tələbatını müəyyən etmək, onların hazırlanması və əlavə təhsili barədə təkliflər vermək;

12.6. *Nazirliyin sisteminə daxil olan qurumlara* səlahiyyətləri daxilində əmr və göstərişlər vermək, onların icrasına nəzarət etmək, onlar tərəfindən qanunvericiliyə zidd qəbul edilmiş qərarların icrasını dayandırmaq və ya ləğv etmək;[23]

12.7. qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq əməkdaşlığı həyata keçirmək, səlahiyyətlərinə aid edilən məsələlər barəsində xarici ölkələrin dövlət orqanları və hüquqi şəxsləri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, beynəlxalq müqavilələrin (sazişlərin) hazırlanmasında iştirak etmək, müəyyən edilmiş qaydada onları imzalamaq;

12.8. qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda aqrar bölmədə müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) vermək, onları ləğv etmək və ya fəaliyyətini dayandırmaq, sertifikatlar və şəhadətnamələr vermək;

12.9. səlahiyyətlərinə aid olan məsələlərin həlli üçün müqavilə əsasında elmi təşkilatları, şirkətləri, mütəxəssisləri, o cümlədən xarici mütəxəssisləri cəlb etmək;

12.10.aqrar bölmədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün səlahiyyətləri daxilində lazım olan tədbirləri görmək;

12.11.kənd təsərrüfatına yararlı torpaqların digər məqsədlər üçün ayrılmasına rəy vermək;

12.12.müvafiq standartlara və normativlərə cavab verməyən əkin materiallarının istehsalına və istifadəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada qadağa qoymaq;

12.13.qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. NAZİRLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

13. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən nazir rəhbərlik edir.

14. Kənd təsərrüfatı naziri Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

14-1. Nazirliyin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. [24]

15. Kənd təsərrüfatı nazirinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən üç müavini vardır. Kənd təsərrüfatı nazirinin ~~birinci müavini və~~müavinləri, onların arasında nazir tərəfindən aparılmış vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə şəxsən məsuliyyət daşıyırlar. [25]

16. *Nazirliyin aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sairə) Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir. Nazirlik həmin qurumların fəaliyyətini əlaqələndirir və onların fəaliyyətinə nəzarət edir.*[26]

17. Nazirliyin *strukturuna daxil olan qurumlar* onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar və müstəqil sərəncam vermək hüququna malikdirlər.[27]

18. Kənd təsərrüfatı naziri:

18.1.Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

18.2.müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının, bilavasitə tabeliyində olan və büdcədən maliyyələşən qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;[28]

~~18.3.qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla Nazirliyin bilavasitə tabeliyində olan və büdcədən maliyyələşən qurumların strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;~~[29]

18.4.Nazirliyin fəaliyyət sahəsinə daxil olan sahələrin, habelə *strukturuna daxil olan qurumların* büdcə vəsaitinə tələbatına dair təkliflər hazırlayır və aidiyyəti üzrə dövlət orqanlarına təqdim edir;[30]

18.5.Nazirliyin aparatının struktur bölmələrinin, *strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumları istisna olmaqla) və onların struktur bölmələrinin* əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq edilməsi üçün müəyyən olunmuş qaydada təqdim edir;[31]

18.6.Nazirliyin aparatının işçilərini *strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumların* rəhbərlərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edir və vəzifədən azad edir;[32]

18.7.Nazirlik sistemi işçiləri barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbeh tədbirləri görür, fəxri adlarla təltif edilmək üçün təqdimat verir;

18.8.Nazirliyin aparatının, *strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların* fəaliyyətinə dair icrası məcburi olan əmr, sərəncam və göstərişlər verir, normativ hüquqi aktlar imzalayır (təsdiq edir), onların icrasını yoxlayır;[33]

18.9.qanunvericilikdə müəyyən olunmuş qaydada beynəlxalq, dövlətlərarası və hökumətlərarası danışıqlarda iştirak edir, beynəlxalq müqavilələr (sazişlər) imzalayır;

18.10.səlahiyyətləri daxilində dövlət sirrinə aid olan məlumatların mühafizəsini təmin edir;

18.11.qanunvericiliyə uyğun olaraq digər hüquqlardan istifadə edir.

19. Nazirlikdə nazirdən (kollegiyanın sədri), nazirin ~~birinci müavinindən və~~ müavinlərindən, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirindən, Nazirliyin aparatının, onun *strukturuna daxil olan qurumların* habelə digər təşkilatların rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Kollegiyanın tərkibinə həmçinin mütəxəssislər və alimlər daxil edilə bilər.[34]

20. Nazirliyin kollegiya üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

21. Nazirliyin kollegiyası öz iclaslarında aqrar bölmənin inkişafı ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

22. Nazirliyin kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

23. Kollegiyanın qərarları müvafiq protokollarla rəsmiləşdirilir və bir qayda olaraq, nazirin əmrləri ilə həyata keçirilir.

24. Nazirliyin kollegiyasının qərarlarının qəbul edilməsində onun üzvləri arasında fikir aynlığı yarandıqda, sədr öz qərarını həyata keçirir və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verir.

25. Zəruri hallarda kollegiya iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəsi olan müvafiq icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların ~~rəhbərləri~~, habelə ictimai təşkilatların nümayəndələri dəvət edilə bilərlər.[35]

26. Nazirlikdə ictimai əsaslarla elmi-texniki şura yaradılır. Elmi-texniki şuranın tərkibi və Əsasnaməsi kənd təsərrüfatı naziri tərəfindən təsdiq edilir.